UOT 37.

*Nahidə Xəqani qızı Əhmədova*
*Bakı Modern Təhsil kompleksinin müəllimi*

# KEYFİYYƏTLİ TƏHSİL ALMAQ HƏR BİR AZƏRBAYCAN VƏTƏNDAŞININ HÜQUQUDUR

*Нахида Хагани гызы Ахмедова*
*учитель Бакинского Образовательного Комплекса Модерн*

# КАЧЕСТВЕННОЕ ОБРАЗОВАНИЕ ЯВЛЯЕТСЯ ПРАВОМ КАЖДОГО ГРАЖДАНИНА АЗЕРБАЙДЖАНА

*Nahida Khagani Ahmedova*
*teacher of the Baku Educational Complex Modern*

# QUALITY EDUCATION IS THE RIGHT OF EVERY AZERBAIJANI CITIZEN

**Xülasə:** Məqalədə son illərdə ölkəmizdə aparılan islahatlardan, təhsil sahəsində görülən tədbirlərin bilavasitə təhsilin keyfiyyətinin yüksəldilməsinə yönəlməsindən danışılır. Təhsilin keyfiyyətini yüksəltmək, yeni pedaqoji texnologiyaları öyrənib onlardan səmərəli istifadə etməyin başlıca vəzifə olduğundan bəhs olunur. Daha sonra təhsildə keyfiyyətin təminatı üçün innovativ yanaşmaların əhəmiyyətli dərəcədə rolu haqda da ətraflı məlumatlar verilir.

***Açar sözlər:*** *təhsilin keyfiyyəti, müəllimin mənəvi siması, pedaqoji texnologiya, tədris prosesi, təhsil strategiyası, didaktik tələblər.*

**Резюме:** В статье говорится о реформах, проводимых в стране в последние годы. В области образования для повышения качества образования применяются новые педагогические технологии. Для повышения качества образования и применения новых педагогических технологий и их эффективное использование является главной задачей в образовании. Затем в статье даётся подробная информация о том, что качество образования в значительной степени имеет инновационный подход в обучении.

***Ключевые слова:*** *качество образования, учитель, моральный образ учителя, педагогические технологии, учебный процесс, образовательная стратегия, дидактические требования.*

**Summary:** The article is about the measures taken in the field of education in recent years in our country, reforms aimed at improving the quality of education. New pedagogical technologies to improve the quality of education, has studied the rational use of its main task as described. For more information about innovative approaches are significant role in further quality assurance in education.

***Key words:*** *the quality of education, teacher's moral image, quality, pedagogical technology, teaching process, educational strategy, teaching requirements.*

Dövlətin, cəmiyyətin və təhsilalanların təhsil sisteminə sosial tələbi keyfiyyətli təhsildir. Təhsil sahəsində aparılan bütün islahatların məqsədi məhz onun keyfiyyətinin yüksəldilməsinə nail olmaqdır. Təhsilin keyfiyyəti nədir? O, necə müəyyən olunur? Təhsilin keyfiyyətini necə idarə etmək olar? Ümumiyyətlə, istənilən sahədə keyfiyyət anlayışı müəyyən olunmuş standartlara uyğunluğu ifadə edir. Obyektin və ya sistemin halını xarakterizə edən parametrlər standarta nə qədər yaxındırsa, keyfiyyət də bir o qədər yüksək hesab olunur. Təhsildə də belədir. Təhsilin keyfiyyəti əldə olunan nəticələrin əvvəlcədən müəyyən olunmuş meyarlara (standartlara) nisbəti ilə müəyyən olunur. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici şagirdin təlim nəticələridir və bu nəticələrin obyektiv qiymətləndirilməsi keyfiyyəti üzə çıxaran etibarlı mənbə hesab olunur.





Keyfiyyət bir fəlsəfi fikir hesab oluna bilər. Hələ qədim yunan alimi Aristotel keyfiyyət nədir və o necə ölçülməlidir kimi sual ətrafında fikirlər yürütmüşdür. XIX əsrdə alman filosofu Hegel keyfiyyətə belə bir tərif vermişdir: "Keyfiyyət ilk növbədə varlıqla eyni vəziyyətdədir. Əgər keyfiyyət yox olursa, varlıq da özünün var olmasını itirir".

Keyfiyyətə iki yanaşma nöqteyi-nəzərindən baxaq: fəlsəfi və idarəetmə yanaşma.



Müxtəlif təşkilatlar və keyfiyyəti araşdıran mütəxəssislərin keyfiyyətlə bağlı müxtəlif fikirləri vardır:

❖ Keyfiyyət - bir mal ya da xidmətin müəyyən bir zərurəti qarşılama qabiliyyətlərini ortaya qoyan xarakteristikalarının bütünüdür (Amerika Keyfiyyət Nəzarət Dərnəyi, ASQC).

❖ Keyfiyyət - bir malın və ya xidmətin istehlakçının istəklərinə uyğun dərəcəsidir .(Avropa Keyfiyyət Nəzarət Təşkilatı, EOQC).

❖ Keyfiyyət - məhsul ya da xidməti iqtisadi bir yoldan çıxaran və istehlakçı istəklərinə cavab verən bir istehsal sistemidir (Yapon Sənaye Standartları, JIS).

❖ Keyfiyyət - istifadə edilən bir məhsulun və ya xidmətin müştərinin gözləntilərinə cavab verməsini təmin edən bazar və istehsal xarakteristikasının toplanmasıdır (A. Feigenbaum).

❖ Keyfiyyət - ən iqtisadi və ən rahat şəkildə istehlakçını davamlı təmin edən

❖ keyfiyyətli məhsulu inkişaf etdirmək, dizaynını etmək, çıxarmaq, keyfiyyət nəzarəti həyata keçirmək və satış sonrası xidmətləri verməkdir (Dr. Kaoru Ishikava).

❖ Keyfiyyət - bir məhsulun tələblərə uyğunluq dərəcəsidir (P. Crosbiy).

❖ Keyfiyyət - məhsulun bazara daxil olunmasından sonra cəmiyyətdə səbəb olduğu minimal zərərdir (G. Taguchi).

Keyfiyyət - məqsədə və istifadəyə uyğunluqdur (J.M. Juran).

Ümumiyyətlə, təhsildə keyfiyyət nədir? Sualına cavab araşdırılarkən bir neçə tərifə rast gəlinmişdir:

- Keyfiyyət standartlara uyğunluqdur.
- Keyfiyyət şagirdin ehtiyaclarının qarşılanmasıdır
- Keyfiyyət-təhsilin məqsədlərinə uyğunluqdur
- Keyfiyyət davamlı müvəffəqiyyətdir
- Keyfiyyət inkişaf etdirilən bir təhsil proqramında (kurikulumda) eyiblər tapmaq deyil, onu eyibsiz tətbiq edə bilməkdir.
- Keyfiyyət ölçülə biləndir
- Keyfiyyət istifadəyə yararlılıqdır.
- Keyfiyyət-qüsursuzluq axtarışına sistemli bir yanaşmadır.

Keyfiyyətli təhsil hər şeydən əvvəl mənəviyyatı zəngin, yüksək mədəniyyətə malik bir şəxsiyyətin, insanda özünü realizə etmənin və özünü inkişaf etdirmənin, özü-özünü tərbiyələndirmənin, nizamlamanın, insanlar arasında sülh və əmin-amanlıqla yaşama kimi bilik, bacarıq və vərdişlər formalaşdırır. Keyfiyyətli təhsil şagirdə təbiət və cəmiyyət haqqında müəyyən biliklər verməklə kifayətlənmir, həmçinin insanı cəmiyyət içərisində layiqli mövqe qurmağa, nəticədə isə yaxşı vətəndaş kimi formalaşmağa kömək edir.

Dahi ingilis yazıçısı Kiplinq (1865-1936) yazırdı: "Təhsil yer üzərində yaranmışların ən xeyirlisidir, əgər o yüksək keyfiyyətə malikdirsə. Əks təqdirdə təhsil tamamilə faydasızdır".

Keyfiyyətli təhsilin məqsədi, onun strategiyası ilə sıx bağlıdır. Aydın ifadə edilmiş hədəflərin yoxluğu, nəticələrin cəmiyyətin yeni tələbləri ilə ayaqlaşmaması, ənənəvi strategiyalardan əl çəkə bilməmək təhsilin məhsuldarlığını aşağı salan səbəblərdəndir. Təhsilin ənənəvi strategiyaları inkişaf etmək istəyən insanın ümumi və xüsusi qabiliyyətlərini tormozlayan bir səbəbdir.

Təhsildə keyfiyyət asagıdakı sxemdə daha aydın görünür:




**Problemin aktuallığı.** Müasir dövrdə təhsil və təhsilin keyfiyyəti xüsusi diqqət mərkəzində saxlanılmaqla öz aktuallığını qorumaqdadır. Araşdırılan problem təhsildə keyfiyyət və onun göstəricilərinin nədən ibarət olması istiqamətində aparılmış və müasir dövrdə bu sahə ən aktual problem kimi önə çəkilməkdədir.

**Problemin elmi yeniliyi.** Araşdırılan problem müasir dövrdə maraq doğuran sahələrdən biridir ki, bu problemin sistemli şəkildə araşdırılması ilkdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə araşdırılan problem gənc tədqiqatçılar və sahə ilə maraqlananlar üçün, həmçinin Təhsilin keyfiyyətin nəzəri məsələləri araşdırılması ilə məşğul olanlar və ali məktəblərdə bu sahədə mühazirələr oxumaq üçün əhəmiyyətli ola bilər.

## Ədəbiyyat:


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlətin Strategiyası // Kurikulum, 2013, №5
2. Təhsil Qanunu. Bakı, 2009.
3. Ümumtəhsil məktəbinin Nümunəvi Nizamnaməsi. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 13 yanvar tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmişdir.
4. Ramiz Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı: "Müəllim" nəşriyyatı, 2010.


**E-mail:** nahide_ehmed@mail.ru

**Rəyçilər:** *dos.* **A. Bəkirova,**
*dos.* **Ə. Gərayev**
**Redaksiyaya daxil olub:** 06.12.2018